*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2025*
*Səh. 3-10*

# *DİLÇİLİK*

https://doi.org/10.62837/2025.3.3

**HƏQİQƏT MEHDİYEVA**
**Azərbaycan Tibb Universiteti,**
**Bakı şəhəri, Mərdanov qardaşları 58**
**hmehtiyeva @internet.ru**

## ALMAN DILI QRAMMATIKASININ TƏDRISINDƏ MÜXTƏLIF METODLARDAN ISTIFADƏ.

**XÜLASƏ**

Dillərin intensiv şəkildə tez öyrənilməsi və tədrisinin müxtəlif üsul və yolları vardır. Bu sahədə dəyişikliklərin və yenilənmələrin olması labüddür. Alman metodiki ədəbiyyatı ilə tanışlıq və onun təhlili göstərir ki, son illərdə kommunikativ metod üstünlük təşkil edir

Təcrübə göstərir ki, dilin öyrənilməsində çalışma və tapşırıqların rolu əvəzsizdir.

Çalışmanın öz vəzifəsi, tapşırığın da öz vəzifəsi var. Amma bunlar arasında ciddi sədd də qoyulur. Çalışmada alınan cavab mütləqdir, tapşırıqda isə alınan düzgün nəticə sərbəstdir.

Müəllimin iştirakı çalışmalar üçün vacibdir. Tapşırıqlarda real problemlər qoyulur. Tələbə suallara kommunikativ baxımdan cavab verir. Çalışmalardan o qədər istifadə olunur ki, daha mürəkkəb tapşırıqlara keçmək mümkün olsun.

**AÇAR SÖZLƏR:** çalışma, tapşırıq, problem, dilin öyrədilməsi, dilin öyrənilməsi

**Abstract**

**THERE ARE VARIOUS INTENSIVE LANGUAGE LEARNING AND TEACHING TECHNIQUES. RENEWAL AND CHANGES IN THIS SPHERE MAY FREQUENTLY OCCUR.**

Investigation and analysis of the German methodical literature reveal the prevalence of the Communicative Teaching method recently. It is practically proved that tasks and assignments play a signification role in leaming the language. Both the task and the assignment have their own functions. And there s also a strict boundary between them. The assignment may have the absolute answer, while the correct result of the task may be free. The instructor is to participate in performing the assignment. The tasks require to solve the real situations. The leamier performs the task communicatively. Repeated solution of the assignments allows to perform the more difficult tasks.

**Key words:** Assignment, language, leaming, language teaching, communicative method

**КРАТКИЙ ОБЗОР**

Существуют различные методы и способы интенсивного и быстрого изучения и преподавания языков. Изменения и обновления в этой области неизбежны. Знакомство с немецкой методической литературой и ее анализ показывают, что в последние годы преобладает коммуникативный метод.

Опыт показывает, что роль занятий и заданий в изучении языка неоценима.

У занятий своя задача, а у заданий своя. Но, между ними существует серьезный барьер. Ответ, полученный в результате занятий, является обязательным, а правильный результат, полученный в задании —произвольным. .

Участие учителей является важным на занятиях. В задачах поставлены реальные проблемы. Студент отвечает на вопросы с коммуникативной точки зрения. Упражнения используются настолько, что можно переходить к более сложным задачам.

**Ключевые слова:**

Занятия, задачи, проблема, обучение языку, изучение языка

Ölkəmizdə xarici firma və təşkilatların fəaliyyəti, respublikamızın beynəlxalq təşkilatlarda təmsil olunması kimi faktorlar alman dilinə də xüsusi maraq və təlabat yaratmışdır. Dillərin öyrənilməsi və onlardan praktikada istifadəsi xarici dil müəllimlərinin üzərinə daha ciddi vəzifələr qoyur.

Buna görə də xarici dillərin tədrisində müxtəlif metodlardan istifadə olunur. Alman dilinin tədrisi metodikasına dair müasir alman metodiki ədəbiyyatı ilə tanışlıq və onun təhlili göstərir ki, son illərdə kommunikativ metod üstünlük təşkil edir. Bu metodla qısa bir müddətdə dilin praktik tətbiqi üçün, yəni həmin dildə danışmaq üçün yaxşı zəmin yaranır. Lakin orta və ali məktəblərimizdə istifadə olunan dərsliklərdə bu metodla iş demək olar ki, getmir. Çox vaxt qrammatik tərcümə metodlarından istifadə olunur ki, bu da adamların dilinin "gec açılması" daməkdir. Dilin tez öyrənilməsi və öyrədilməsi üçün müxtəlif vasitələr var ki, bunlar da tez-tez dəyişilə, köhnələ və təzələnə bilər. Təcrübə göstərir ki, dilin öyrənilməsində çalışma və tapşırıqların rolu əvəzsizdir. Çalışma və tapşırşqları düzgün müəyyən etmək, yeniləşdirmək, onlardan düzgün istifadə etmək əsas faktorlardan biridir. Çalışma və tapşırıqlar bütün metodlarda istifadə olunur ki, onların da öz tipologiyası – təsnifatı var. Alman metodik ədəbiyyatında çalışma və tapşırşqlar fərqləndirilir. Çalışmada məhdud dil materialı məşq edilir. Onlar hazırlaşdırıcı funksiya daşıyır. Tapşırıqlar isə müdaxilə etməyə və yaratmağa xidmət edir. Tapşırıqlarda real problemlər qoyulur. Tələbə suallara kommunikativ baxımdan cavab verir. Çalışmanın öz vəzifəsi,

tapşırığın da öz vəzifəsi var. Amma bunlar arasında ciddi sədd də qoyulur. Günter Düzelmanın fikrincə, tapşırıq çalışmanın xüsusi növüdür, o, çox açıq çalışma formasıdır. Piponun fikrincə isə çalışmada alınan cavab mütləqdir. Məzmunca, ifadəsi və qaydası ( mən nə demək istəyirəm? Mən bunu necə deyirəm? Mən bu zaman hansı qaydaya riayət etməliyəm?) bunlar bir-biriilə sıx əlaqəlidir.

Tapşırıqda isə alınan düzgün nəticə sərbəstdir. Yəni bunlar bir neçə variantda ola bilər. Hər kəs aldığı biliklərə istinad edərək müxtəlif nəticə çıxara çıxara bilər.

Bu fərqi bilərək çalışma və tapşırıqlardan daha səmərəli istifadə etmək olar. Başlanğıc mərhələdə əsasən çalışmalardan və sadə tapşırıqlardan istifadə olunur. Müəllimin iştirakı çalışmalar üçün vacibdir. Çalışmalardan o qədər istifadə olunur ki, daha mürəkkəb tapşırıqlara keçmək mümkün olsun.

Çalışma və tapşırıqların çox sahələr üzrə tipalogiyası var. Onların hamısı haqqında kiçik bir məqalədə məlumat vermək qeyri mümkündür. Orta və ali məktəblərdə alman dilinin qrammatikasına daha ciddi fikir verdildiyindən, qısa da olsa bu sahadə istifadə oluna bilən çalışma və tapşırıqlardan bəzi nümunələr vermək istərdik.

Hamıda belə bir fikir oyanır ki, alman dilinin qrammatikası çətindir və bunu öyrənmək asan deyildir. Bu, həqiqətən belədir. Amma hər bir çətin problemin həlli yolu olduğu kimi, alman dili qrammatikasını da asan yollarla öyrənmək və öyrətmək olar. Alman dili qrammatikasını hətta cəngəlliklə müqayisə edənlər də var. Amma bu cəngəlliyin sıxlığını seyrəkləndirmək də olur. Alman dilinin qrammatikasını asan öyrənmək üçün aşağıdakı komponentləri nəzərə almaq lazımdır: öyrədilən materialın kommunikativ gerçəkliyə əsaslanaraq seçilməsi, onun lazami qaydada paylanması, qaydaların aydın vurğulanması (müstəsnalardan fərqli olaraq) və bu günkü alman dilinin həqiqi qrammatikası.

Son illər Almaniyaya gedib müxtəlif kurslarda iştirak edən, ali məktəblərdə oxuyub gələn tələbələr şikayət edirlər ki, burada onlara bu gün Almaniyada danışılan canlı alman dilində çox işlənilməyən qrammatik konstruksiyalar öyrədilir. Əlbəttə, hamının Almaniyaya gedib orada dilini təkminləşdirmək imkanı yoxdur. Amma dərs prossesində texniki vasitələrdən düzgün istifadə etməklə buna nail olmaq mümkündür.

Mümkün ola bilən çalışma və tapşırıqları 5 qrupa bölmək olardı: (bu bölgünü alman dilində verməyi məsləhət bildik)

- Analytische Aufgaben (zum Schen, Herausfinden, kerstchen qrammatischer Regelmäßigkeiten)
- “Einspielungen” (Geläubigkeitsübungen)
- Inventionen (halboffene Übungen und Aufgaben)
- Knobelstücke (rätselähnliche grammatische Feinaufgaben)
- Freie Gestaltungsaufgaben.

Adları çəkilən çalıçma və tapşırıq növlərini qısa səciyyələndirməklə bir-iki misal növü göstəririk:

**1. Analitik tapşırıqlar:** Qrammatik qayda mümkün qədər tələbəyə hazır şəkildə verilməməlidir. Tələbələr özləri qaydanı "kəşf" etməlidir. Qaydanın tələbə tərəfindən "kəşf" edilməsi onu doğmalaşdırır, dərsi canlandırır, beyində həkk olunaraq ondan istifadəni asanlaşdırır. Bu tapşırıqlara aiddir:

1.Strukturelle Elemente erkennen und markieren.

2. Regeln entdecken und notieren.

3. Formen analytisch verstehen und benutzen.

**3-cü punkta aid misal:**

**Hier ist eine Liste mit Partizip II Formen. Schreibe dazu das Verb im ÖInfinitiv und erganze den Beispielsatz.**

Angeschaut, anschauen. Heute habe ich einen Film angeschaut.

B. Joghurt, sagt der Arzt.
Ja, ja, ich soll Jogurt essen, aber ich tus nicht.
Sport treiben, sagt der Arzt.
Viel schlafen, sagt der Arzt.
Nicht rauchen, sagt der Arzt.
Keinen Alkohol, sagt der Arzt.
Eine Brille tragen, sagt der Arzt.
Salat essen, sagt der Arzt.

Belə çalışmalar "etməklə öyrənmə" dərsləri üçündür. Avropada belə dərslər geniş yayılmışdır. Almanca "Lernen durch Tun" adlanır. Çox zaman ingiliscə yazılr.

Bu zaman müxtəlif imkanlardan istifadə olunur: Zəncirvari çalışma. Biri bir cümlə deyir və o biri cümləni kimin deyəcəyini müəyyən edir.

Sonrakı da bu cür davam etdirir.

Kiçik qruplarda yazılı iş, sonra da plenumda müzakirə.

**2. Einsetzübung.**

Tamamlama çalışmaları. Belə çalışmalar danışığı sürətləndirməyə kömək edir. Burada nə qədər rəngarəng mövzular seçilərsə, məzmunca çalışmalar bir o qədər həvəslə edilir.

A. Was passt zusammen? Ergänzen Sie das Adjektiv mit seiner Enolung.

schwer, schrecklich, rot, blond, kurz, blau, dunkel, autorität

1. Die ...Liebe
2. Das ... Ende
3. Der... Himmel

4. Die ... Chefin
5. Die ... Rosen
6.Die Wolken
7.Die Kollegen
8.Die ... Freunde
9. Die ... Taschen

**3.Inventionen.**

Bu tipli çalışma və tapşırıqlar cümlələrin və qısa mətnlərin sərbəst düzəldilməsi üçündür. Məqsəd alman dilinin cümlə quruluşunu aparıcı cümlə elementlərindən istifadə edərək öyrətməkdir. Burada müxtəlif variasiyadan istifadə olunur. Ancaq nümunə cümlədən istifadə mütləqdir. Belə yarı açıq çalışma və tapşırıqlaradətən dərs proqramında öz əksini tapmır.

Belə tapşırıq - çalışmaları müxtəlif qrammatik mövzular üçün tərtib etmək olar:

1) Satyorganisation: Dativ und Akkusativ

| | |
|---|---|
| a.Mutter | Reisetasche, Kochbuch |
| 45 Jahre | Wörterbuch, Kamera, Fußball |
| raucht | Skibrille, Briefpapier |
| hört gern Musik | |
| reist gern | |

a)Die Mutter
Ihr kann man eine Schallrlatte schenken, denn sie hört gern Musik.
Ihr kann man eine Feuerzeug ... , denn

b.Vater
50 Jahre
spielt Fußball
kocht gern
Hoppy – Fotograf
b) der Vater
Ihm kann man ...

c. Tochter
18 Jahre
schreibt gern Briefe -----
lernt Spanisch -----
fahrt gern Ski
c) Die Tochter

Ihr kann man ...

Cümlələr Dativ və Akkusativ halını düzəltmək üçün nəzərdə tutulub. Modal və digər feillər dekorativ xarakter daşıyır. Denn bağlayıcılı cümlə sərbəst əlavə olunub.

Satzvariation: Freies Spiel mit einem oder mehreren Satzelementen.

Sätze nachbauen. Bu çalışmalarda nümunə cümlələr verilir. Dil öyrənənlər bu səpkili cümlələr düzəltməli, amma cavablar olur. Qrammatik cəhətdən səhvsiz olan hər cavab düzgün sayılır, məzmunca qeyri-real, fantastik olsa belə.

IV. KNOBELSTÜCKE. Bu bölgüyə aid olan çalışma və tapşırıqlar Inventiondan fərqli olaraq ani düşünmək yox, daha dəqiq işləməyi tələb edir. Bu çalışma və tapşırıqları da qrup şəkilində aparmaq olar. Sonra alınan nəticələri Plenumda müzakirə etmək lazımdır.

1)Dəyişkən şəkillər: İlk baxışda eyni görünən 2 şəkil verilir. Diqqətlə baxılanda bu şəkillərdə müxtəlif saylarda fərqlər ola bilər. Vergleichen Sie die beiden Zeichnungen. Es gibt 20

Unterschiede. Bitte schreiben Sie diese auf.

V. FREİE GESTALTUNGSAUFGABEN.

Bu tipli tapşırıqlar üçün yarımçıq şəkildə (fragmatik) qrammatik struktur elementlər verilir. Yaxşı olardı ki, tapşırıq yerinə yetirilərkən yazılan və ya deyilən cavablarda bu elementlərdən istifadə olunsun. Amma bu və digər tərzdə qrammatik cəhətdən düzgün ifadə olunmuş hər hansı bir cümlə ya fikir də düzgün hesab olunur.

Notieren Sie mehrere Antworten:

Augenblicke, die man nicht vergißt.

a. Was waren für Sie besondere Erlebnisse in Ihrem Leben?

-- Für mich war es ein besonders Erlebnis, als meine jüngste Schwester geboren wurde.

b. Wann waren Sie mal so richtig glücklich?

---

Bu tapşırığı yerinə yetirməzdən əvvəl fikirləşməyə 3-4 dəqiqə vaxt verildikdə daha yaxşı nəticə əldə etmək olur. Dərsdə nə qədər işgüzar mühüt olarsa, alınan cavablar da daha rəngarəng və müxtəlif olar.

Növbəti çalışma isə qulaq asıb başa düşməyə aiddir.

Almanca Hörverstehensübung adlanır. Bu tipli çalışmalar aydın danışmaq üçün məşq edilir.

Die Leute, die Sie hören, sind alle extrem höflich. Sie wollen etwas, aber das sagen sie nicht klar, sondern sehr vorsichtig. Nehmen Sie ein Blatt Paapier und sagen Sie dieselben Wünschen klar und einfach.

Cassette: Verzeichnung, können Sie mir bitte sagen, wo der Bahnhof ist?

Lösung: Wo der Bahnhof ist?

- Ach, hätten Sie vielleicht einen Augenblick Zeit, das Fenster zu schießen? Es scheint mir direkt ins Gesicht.

- Oh, entschuldigen Sie die Störung! Wissen Sie, ich bin fremd hier. Ob Sie mir vielleicht sagen könnten, ob dieser Zug nach Bonn fährt?

- Ach Verzeihung, können Sie mir sagen, ob es hier in dieser Stadt eine Apotheke gibt?

- Nur eine ganz kleine Frage. Würden Sie mir sagen, wie spät ist es?

2. Grammatik-Umsetzung: Bauelemente und Text selbst entwickeln.

Aufgabe. Ich bin zu Gast bei Familie X und schaffe im selben Zimmer mit Christine.

Sie ist Schlafwandlerin. Ich soll auf sie anpassen, aber sie nicht wecken! Christine steht in der Tat.

| | |
|---|---|
| gearbeitet | Gestern --- ich 3 Stunde im Garten --- |
| besucht | Am Sonntag --- wir den Zoo --- |
| diskutieren | --- ihr schon einmal in der Schule über Politik --- |

Qeyd. Bu tapşırıqların heç birindən ev tapşırığı kimi istifadə etmək olmaz. Onları dərsdə tələbələri kiçik qruplara bölüb işləmək üçün yararlıdır. Nəticə əvvəl kiçik qruplarda, sonra isə bütün auditoriyada kollektiv şəkildə ( buna almanca Plenum deyilir) müzakirə olunur.

IV EINSPIELUNGEN. Elə olur ki, bu və ya digər dərslərdə tapşırıq ya az verilirb, ya da heç verilməyib. Onda hər bir müəllim digər dərsliyə müraciət edib ona lazım olan materialı götürə bilər. Hər sahədə rast gəlindiyi kimi, çox vaxt asan dialektik çalışma tapşırıqları yüksək kommunikativliyə nail olmaq olar.

1)Einsichtung sprechen (ağıllı, ehtiyatla danışma)

Şifahi nitq çalışmaları:

A. Du, in dem Cafe sitzt mein Chef.
- Dann setzen wir uns nicht in das Cafe.
Du, der Bus ist aber voll!
-Dann fahren wir nicht mit dem Bus.
Ein eiskaltes Zimmer.
Auf der Bank sitzt ein Liebespaar.
An dem Tisch sitzt mein Professor.

Mətni davam etdirərək danışmaq. Belə səpkili tapşırıqları qiymətləndirərkən fantaziya ilə yanaşı nitgin nə dərəcədə düzgün olduğu da nəzərə alınmalıdır. Burada

artıq uydurma yox, keçirilmiş grammatikadan nə dərəcədə düzgün istifadə olunması qiymətləndirilir.

2. Grammatik – Umsetzung im Rollenspiel.

Ihre Rolle, bitte.

a. Zwei Politiker treffen sich im Gefängnis. Was war davor?

b. Der Hausbesitzer kündigt seinen Mieder. Was war davor?

c. Der Kassenwart hat die Kasse beraubt und wird entlassen.

Yazılanları ümumiləşdirərək belə nəticəyə gəlirik ki, alman dilinin öyrənilməsində çalışma və tapşırıqları düzgün etməklə daha tez praktik vərdişlərə yiyələnmək olar. Dərslikdə həm çalışma, həm də tapşırıqlar öz əksini tapmalı və onlar bir-biri ilə sıx əlaqədə olmalıdır. Onu da qeyd edək ki, yalnız dərsliklərdə olan çalışma və tapşırıqlarda dilin praktik öyrənilməsinə

kömək edə bilməz. Bunun üçün həm də müxtəlif ədəbiyyatdan istifadə olunmalı, yeni çalışma və tapşırıqlar tərtib edilməlidir. Belə olduqda bu sahədə daha daha çox uğur qazanmaq olar.

## Ədəbiyyat

1. Grundstufen – Grammatik Deutschland. München 2010
2. Der Weg. Die Zeitschrift für Deutschlernende. Deutschland 2008
3.Qrammatik der Deutschen Sprache. Moskva 1983
4.Самоучитель немецкого языка. Moskva 1987
5. Gesundheit. Kleine Enzyklopädie. Leipzig 1968
6. Deutsch für Medizin. Maria Györffy deutsch von Betty und Renate Bagassy. 2007

**Rəyçi: prof. Məmmədova Z.Ş.**
**tərəfindən çapa tövsiyyə olunmuşdur.**